# LƏNKƏRANDA TARİXİN UNUDULMAZ SƏHİFƏLƏRİNİN NÜMAYİŞİ



Gənclər və İdman Nazirliyinin təşəbbüsü, Müdafiə Nazirliyi və Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Lənkəran şəhərində faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş "Tarixin canlı səhifələri" adlı III Gənclər Festivalı keçirilmişdir.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli, Gənclər və İdman naziri Azad Rəhimov, Daxili İşlər Nazirliyinin Narkotiklərlə Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov, Qırğızıstan və Belarus respublikalarının Azərbaycandakı səfirliklərinin nümayəndələri və digər qonaqlar Heydər Əliyev xatirə parkına gələrək ümummilli liderin abidəsini ziyarət etmiş, abidənin önünə tər qərənfil dəstələri düzmüşlər.

Tədbir iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun ev-muzeyində davam etdirilmişdir. Muzeyin direktoru Tamara Fətullayeva və Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Abdulla Qurbani qəhrəman sərkərdənin şanlı ömür və döyüş yolu barədə ətraflı söhbət açmış, qonaqları əfsanəvi qəhrəmanın mənalı ömür yolunu əks etdirən eksponatlarla tanış etmişlər.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dövrdə Böyük Vətən müharibəsinin veteranlarına yüksək diqqət və qayğı göstərdiyini, bu gün həmin qayğının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırmış, dövlətimizin başçısının alman faşizmi üzərində qələbənin 70 illiyi ilə əlaqədar imzaladığı sərəncamın əhəmiyyətindən, Tədbirlər Planına əsasən həyata keçirilən silsilə tədbirlərdən danışmışdır.

İcra başçısı festivalın xalqımızın hərb və döyüş tarixinin gənclərə əyani olaraq çatdırılmasında, yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Sonra Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Abdulla Qurbaninin yeni kitabı tədbir iştirakçılarına təqdim olunmuşdur.

Axşam saatlarında Göyşaban kəndinin yaxınlığında yerləşən geniş bir ərazidə quraşdırılmış səhnədə layihəyə start verilmişdir. Səhnədə müharibənin dəhşətli səhnələri canlandırılmış, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, üç dəfə Qırmızı Bayraq, ikinci dərəcəli Suvorov, Aleksandr Nevski, birinci dərəcəli Vətən müharibəsi və iki dəfə Qırmızı Ulduz ordenləri ilə təltif edilmiş qvardiya general-mayoru Həzi Aslanovun, Azərbaycanda, o cümlədən Qafqazda ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş İsrafil Məmmədovun, adı dillər əzbər olmuş Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin, görkəmli şərqşunas və tarixçi alim, Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun döyüş şücaətləri 200 nəfərdən çox aktyor və tələbənin ifasında tamaşaçılara təqdim edilmişdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**



